| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin kodu, adı və kreditlərin sayı** | AZH150 Azərbaycan tarixi (6 AKTS) |
| | **Fakültə** | Təbiət elmləri və Mühəndislik |
| | **Departament** | Tarix və Arxeologiya departamenti |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2020/2021-ci tədris ilinin yaz semestri |
| | **Fənnitədrisedənmüəllim (lər)** | Ph.D Zəhra İslamova |
| | **E-mail:** | zahra.islamova@khazar.org |
| | **Telefon:** | |
| | **Mühazirə otağı/ Cədvəl** | |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | **Yoxdur** | |
| **Tədris dili** | **Azərbaycan dili** | |
| **Fənnin növü (məcburi, seçmə)** | **Məcburi** | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | **Əsas dərsliklər:**<br>1 **Azərbaycan tarixi (ən qədim zamanlardan -XXI əsrin ilk onilliklərinədək)Ali məktəblər üçün dərslik. M.Q.Abdullayevin redaktəsi ilə.Bakı, 2016. (cədvəldə bu dərsliyin səhifələri göstərilmişdir).**<br>2.Azərbaycan tarixi, I cild (Ən qədim zamanlardan XX əsrədək).<br>Z. Bünyadovun və Y. Yusifovun redaktəsilə. Bakı,2005.<br>3. İsmayıl Məmmədov. Azərbaycan tarixi. Bakı, 2005.<br>4. Azərbaycantarixi (uzaq keçmişdən 1870-ci illərə qədər)red. prof. Süleyman Əliyarlı. Bakı, 2009.<br>5. XX əsr Azərbaycan tarixi,II cild, Red. Y.B. Yusifov və T.T. Vəliyev. Bakı, 2004.<br>**Əlavədərsliklər və elmi monoqrafiyalar:**<br>6.Azərbaycantarixi üzrə qaynaqlar, red. S.Əliyarlı Bakı, 2007.<br>7. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, Bakı,2004 ( III fəsil,§ 2, §8; V fəsil § 2).<br>8. Oqtay Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti, Bakı, 1993 (I fəsil, II fəsil s.33-35, s.46-49).<br>9. Tadeuş Svyatoçovski. Rusiya və Azərbaycan. Bakı, Xəzər Universitəsi, 2000.<br>10.C.Həsənli. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) Bakı,2015.<br>11. Araz Aslanlı. Qarabağ problemi, (tarixi, mahiyyəti, həll prosesi). Bakı, 2009.<br>12. A.Bakıxanov. Gülüstani İrəm. BAkı, Elm, 1993 | |
| **İnternet saytları** | www.azerbaijan.az;<br>www.aztarix.azeriblog.com;<br>www.azerbaycanli.org | |
| **Tədris metodları** | **Mühazirə** | **Tədris prosesində aşağıdakılar nəzərdə tutulur:**<br>- mühazirələr<br>- mövzu ətrafında müzakirələr |
| | **Diskussiya** | |
| | **Praktiki tapşırıqlar** | |

| | | | |
|---|---|---|---|
| | **Praktik məsələlərin təhlili** | - xəritələr, video və digər online materiallardan istifadə | |
| | **Digər** | - bəzi mövzularla əlaqədar olaraq tanınmış alim və mütəxəssislərin dərslərə dəvət edilməsi | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%), bal** |
| | **Aralıq imtahanı** | aprel (1-7-ci mövzular) | **30 bal** |
| | **Fəallıq** | Dərslərdə, diskussiyalarda, prezentasiyalarda və elmi seminarlarda iştirak etmək | **5 bal** |
| | **Yoxlama yazı işi (quiz)** | Kurs boyu ikiyoxlama yazı keçirilməsi nəzərdə tutulur. Bir yazı aralıq imtahanı öncəsi, ikinci yazı yekun imtahan qabağı. **Yoxlama işinin birincisi 7, ikinci yazı işi 8 bal ilə qiymətləndirilir.** | **15 bal** |
| | **Prezentasiya** | Tələbələr prezentasiyanı qrup şəklində təqdim etməlidirlər. Hər bir qrup 4-5 tələbədən ibarət olmalıdır. Qrup lideri və ya qrup üzvlərindən biri prezentasiyanın planını prezentasiyanı təqdim edəcəkləri gündən bir həftə öncə müəllimə göndərməlidir. Vaxtında göndərilmədiyi halda hər bir qrup üzvü 5 balı itirəcəkdir. Hər qrupa təqdimat üçün 20 dəqiqə vaxt verilir. Hər bir qrup üzvü öz hissəsini danışmalı və təqdim etməlidir. Qrup prezentasiyasından sonra digər tələbələr öz sualz, 5 ballarını və fikirlərini söyləyə bilərlər. Son olaraq, müəllim suallarını soruşacaq və prezentasiya haqqında fikirlərini deyəcəkdir. Mövzular müəllim tərəfindən verilə bilər və yaxud tələbələr özləri seçə bilərlər. | **5 bal** |
| | **Yazı işi - esse** | **Yazı işinə aid qaydalar:**<br>1.İş ayrıca vərəqlərdə yazılmalıdır. Kağızın formatı A4, şirifti 14, interval 1, işin həcmi 3-5 səhifə olmalıdır.<br>2.Vərəqin bir üzü yazılmalı, vərəqə nömrələr qoyulmalıdır.<br>3.İş aydın yazılmalı, fikirlərin abzaslara bölünməsi məntiqi olmalıdır, hər yeni fikirdə abzasdan istifadə edilməlidir. İşin girişi və nəticəsi olmalıdır.<br>4.İş yazılarkən mənbələrə (hər hansı bir tarixi monoqrafiya, əsər) istinad edilməlidir. İstinad qaydaları müəllim tərəfindən təqdim olunacaqdır.<br>5.Sonda istifadə olunmuş ədəbiyyatın siyahısı əlavə edilməlidir. | **5 bal** |

| | | | |
|---|---|---|---|
| | | 6.Işin titul vərəqi olmalıdır: mövzunun adı, tələbənin adı, soyadı, fakültəsi, işin yerinə yetirildiyi department göstərilməlidir. | |
| | | | |
| | **Final imtahanı** | İyun<br>(8-15-ci mövzular) | **40 bal** |
| | **Digər** | | |
| | **Yekun** | | **100 bal** |
| **Kursun təsviri və məqsədləri** | Azərbaycan tarixi kursu qədim zamanlardan son günlərədək vətən tarixini əhatə edir. Son illər konseptual dəyişmələr baş verdiyindən bir sıra məsələlərə baxış əvvəlkindən kəskin şəkildə fərqlənir. Bəzi tarixi hadisələr yeni faktlarla zənginləşib, müəyyən dövrlərdəki boşluqlar doldurulmaqdadır. Tədris proqramının tərtibi zamanı bütün bu amillər nəzərə alınmış, tarixin qaranlıq səhifələrinə diqqət artırılmışdır. İş planı Azərbaycan tarixi barədə bitkin və dolğun təsəvvürün formalaşmasına imkan verir. Proqramın tərtibi zamanı daha çox fənn haqqında ümumi anlayışların möhkəmləndirilməsinə və tələbələrin dünyagörüşünün formalaşmasına xidmət etməsi nəzərdə tutulmuşdur. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Fənnin ümumi tədrisi prosesində tələbələrdə:**<br>- Azərbaycan tarixi haqqında bitkin, dolğun və obyektiv təsəvvür yaranacaq;<br>- Azərbaycanın qədim dünya sivilizasiyasının ocaqlarından biri və Şərq dünyasının ayrılmaz hissəsi olmağı haqda məlumatları daha da genişlənəcək;<br>- Azərbaycan etnosunun təkraredilməz və avtoxton olduğuna dair geniş təsəvvür yaranacaq;<br>- Vətən tarixinə, mədəniyyətinə, mənəvi dəyərlərinə sevgi və hörmət hissini daha da artıracaq və vətənpərvərlik ruhunu daha da yüksəldəcəkdir!<br>Qazanılmış təcrübə<br>- Tarixi hadisələrin analizi;<br>- Tarixi hadisələrə tənqidi və obyektiv yanaşma;<br>- Azərbaycanın mədəni-tarixi inkişaf mərhələlərinin araşdırılması və Azərbaycanın müasir dövrdə dünya miqyasında rolu və yerinin müəyyənləşdirilməsi. | | |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət**<br>Tələbələrin Microsoft Teams platformasında bütün online dərslərdə iştirakı zəruridir. Tələbələr müəyyən səbəblərdən dərslərdə iştirak edə bilmirsə, (xəstəlik, ailə vəziyyəti və s.) bu haqda məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. Online dərslərin 30%-də iştirak etməyən tələbə imtahana buraxılmır.<br>**Kurs işi, layihə və tapşırıqlar**<br>Tələbələr tapşırıqları yerinə yetirərkən plagiarizmə yol verməməli, əldə etdikləri məlumatların mənbələrinə istinad etməli və istinadları göstərməlidir.<br>Tələbələrin qiymətləndirmə üçün müəllimə təqdim etdiyi tapşırıqlarda 25% və daha artıq Plagiarizm halları (müvafiq istinadların mənbəyinin göstərilməsi halları istisna olmaqla) aşkarlandığı zaman iş sıfırlanır. | | |

**Yoxlama işi**

Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.

**İmtahanlar**

Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

Aralıq və yekun imtahan mövzuları tələbələrə imtahandan öncə verilir. Aralıq imtahanının sualları yekun imtahanında təkrarlanmırlar.

**İmtahan qaydaları**

Aralıq və yekun imtahanları işində tələbə tərəfindən və bir-birindən köçürülmə qadağandır. Bu qaydaya riayət etməyən tələbələrin imtahan işi ləğv olunur və tələbənin qiyməti sıfırlanır.

Quiz və imtahanlarda tələbələr kamera və mikrofonlarını açıq saxlamalıdırlar. İmtahan müddəti 120-150 dəqiqə müəyyənləşdirilib. İmtahan tapşırıqlarının sayından, çətinlik dərəcəsindən, ana dilində olub-olmamasından, suala verilən cavabın həcmindən və s. asılı olaraq müəllim tərəfindən təklif olunarsa, departament rəhbəri ilə razılaşdırılıb dəyişdirilə bilər.

**Fənni bitirmək qaydası**

Universitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və yuxarı hesab edilir. Kəsiri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**Tələbələrin davranış qaydaları**

Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq qadağandır. Həmçinin tələbələr arasında icazəsiz müzakirələr qadağandır. Online dərsi yalnız müəllim özü başlada bilər, tələbələr Microsoft Teams platfomasında cədvəl üzrə təyin olunmuş dərsi başlada bilməzlər.

**Cədvəl (dəyişdirilə bilər)**

| Həftə | Tarix (planlaşdırılacaq) | Fənnin mövzuları | Dərslik/Tapşırıqlar |
|---|---|---|---|
| 1. | | **Giriş.** Tələbələri Azərbaycan tarixi fənninin iş proqramı və onların qarşısında duran vəzifələr ilə tanış etmək. Niyə Azərbaycan tarixini öyrənməliyik?! Azərbaycan tarixi nədən bəhs edir; onun analizi, öyrənilməsi, başlıca dövrləri, tarixi qaynaqlar. Qədim dövrün tarixşünaslığına dair qisa məlumat.<br>Azərbaycanda ibtidai-icma dövrü haqqında anlayış. Manna dövləti, Atropatena, Antik Qafqaz Albaniyası | ***Azərbaycan tarixi (ən qədim zamanlardan - XXI əsrin ilk onilliklərinədək) M.Q.Abdullayevin redaktəsi ilə.Bakı, 2015***<br>[I fəsil , § 1,3,4 s.5-11, 19-30]; |
| 2. | | Alban dövləti III-VII əsrlərdə. Arşakilər sülaləsi və Mehranilər sülaləsi dövründə siyasi tarix. Mədəniyyət.<br>Azərbaycanda xilafət ağalığı və ona qarşı mübarizə. İslamın yayılması. Xürrəmilər hərəkatı. Babək | [II fəsil , § 5 s.30-40];<br>[ II fəsil, § 6 s.40-51]; |
| 3. | | Etnogenez problemi. Azərbaycan xalqının formalaşması. Xalqın formalaşmasında rol oynamış bir sıra etnik toplular haqda qısa məlumat<br>Azərbaycan IX yüzilliyin ikinci yarısı – XI yüzillikdə. Azərbaycan feodal dövlətləri və | [ II fəsil , § 7, s. 51-61];<br>[III fəsil , § 8-10 |

| | | | |
|---|---|---|---|
| | | səlcuqlular haqqında.Eldənizlər dövləti. IX-XIII yüzilliklərdə Azərbaycan mədəniyyəti. | s.61-82] |
| 4. | | Monqolların I, II, III yürüşü. Azərbaycan Monqol ağalığı dövründə. Azərbaycan Hülakülər imperiyasının mərkəzi kimi. Qazan xanın islahatları<br>Azərbaycan XIV yüzilliyinin sonu-XV yüzillikdə. Ölkənin ictimai siyasi həyatı. Toxtamış və Teymurun Azərbaycana yürüşləri. Şirvanşah I İbrahim | [IV fəsil , § 11-13, s. 94-99, 102-106];<br><br>[IV fəsil , § 14 s.106-110] |
| 5. | | Azərbaycan Baharlı və Bayandurlu sülalələri dövründə. Sosial-iqtisadi vəziyyət, xarici siyasət. Mədəniyyət<br>Azərbaycan XVI yüzillikdə. Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin yaranması. Şah I İsmayıl və Şah I Təhmasib. | [V fəsil , § 15-16, s.110-120]<br>[ VI fəsil , § 17, s.120-125] |
| 6. | | Azərbaycan XVI yüzilliyin sonu - XVII yüzilliyin əvvəllərində. Şah I Abbasın hakimiyyəti (1587-1629).<br>Azərbaycan Səfəvi dövləti XVII-XVIII əsrin əvvəllərində. İmperiyanın zəifləməsi və Azərbay-canın beynəlxalq rəqabət meydanına çevrilməsi (XVIII yüzilliyin 20-30-cu illəri). Səfəvi mədəniyyəti | [VI fəsil , §18-20 s.120-152]; |
| 7. | | Azərbaycanda dövlət müstəqilliyi uğrunda mübarizə. Nadir şah Əfşarın tarix səhnəsinə gəlişi.<br>Azərbaycan xanlıqlarının yaranması, idarəçilik sis-temi, təsərrüfat həyatı, xarici siyasəti haqqında. Şəki, Qarabağ, Quba və Urmiya xanlıqlarının müxtəsər tarixi. Birləşdirmə siyasətinin təfərrüatları. | [VI fəsil , § 20 s.155-157];<br><br>[VII fəsil , § 21 s.158-165]; |
| | | | |
| 8. | | Azərbaycan beynəlxalq münasibətlərdə (XVIII əsrin sonu - XIX əsrin əvvəli). Qacarların Azərbaycan tarixində yeri və rolu. Kürəkçay müqaviləsi.<br>Gülüstan müqaviləsi və Azərbaycan üçün nəticələri | VIII fəsil,<br>§ 22, s.175-176,<br>§23, s.179-183 |
| 9. | | Azərbaycanın Rusiya və Qacarlar arasında bölüşdürülməsinin ikinci mərhələsi. II Rusiya-Qacar müharibəsi. Türkmənçay müqaviləsi.<br>Çarizmin köçürmə siyasətinin mahiyyəti. XIX yüzilliyin birinci yarısında Şimali Azərbaycanda ictimai-siyasi həyat. İqtisadi durum. Müstəmləkə zülmünə qarşı üsyanlar. | VIII fəsil,<br>§23 s. 183-187;<br><br>§24 s. 188-194 |
| 10. | | Şimali Azərbaycan XIX yüzilliyini ikinci yarısında. Kapitalist münasibətlərinin yaranması və inkişafı. Bu dövrdə Rusiya tərəfindən keçirilmiş islahatlara baxış.<br>Azərbaycan XX əsrin əvvəllərində. Bakının | [VIII fəsil, § 25-27 s.195-220];<br><br>[ IX fəsil, § 29, s. 220-222, ] |

| | | | |
|---|---|---|---|
| | | dünya neft mərkəzi kimi yüksəlişi. Azərbaycan I Dünya müharibəsi illərində | |
| 11. | | Şimali Azərbaycan Demokratik Respublikası. Azərbaycanın istiqlaliyyət uğrunda mübarizəsi. ADR-in daxili siyasəti. Azərbaycanın beynəlxalq vəziyyəti. Aprel işğalı. ADR-in süqutu. | [ X fəsil, § 231-32, s. 230-258, ] |
| 12. | | Azərbaycan SSR. Azərbaycan 1920-1930-cu illərdə. Azərbaycan SSR-in ZSFSR və SSRİ-yə daxil edilməsi. Sovet hakimiyyətinin qurulması. İctimai və siyasi vəziyyət. Azərbaycanda Sovet totalitarizmi. 30-cu illərin repressiyaları. Totalitar rejimin möhkəmlənməsi<br>Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası. M.C.Bağırov hakimiyyətinin müsbət və mənfi cəhətləri. Azərb. SSR II Dünya müharibəsi illərində. | [XI fəsil, § 38-40 s.268-298]; |
| 13. | | İ.Mustafayev. V.Axundov. Azərbaycan SSR 70-80-ci illərdə. H.Əliyev. Millətçilik və vətənpərvərlik meyllərinin artması. "İldırım" təşkilatı<br>Cənubi Azərbaycan XX əsrdə. Güney Azərbaycanda demokratik hərəkatın rəhbərləri Səttarxan, Ş.M.Xiyabani, S.C.Pişəvəri | [XII fəsil , § 41-42 s.298-315]<br>[XIII fəsil, § 43-44, s.315-330]; |
| 14. | | Azərbaycan SSR 80-ci illər-90-cı illərin əvvəllərində. "Dağlıq Qarabağ problemi"nin ortaya atılması. Yeni siyasi partiyalar, ictimai təşkilatlar. AXC-nin yaranması və onun rolunun artması. Azərbaycanlıların Ermənistandan deportasiyası. 1990-cı il 20 Yanvar faciəsi. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi.<br>Müstəqil Azərbaycan Respublikasının inkişaf problemləri. Daxili və xarici vəziyyət. A.Mütəllibov, Y.Məmmədov, İ.Qəmbər, Ə.Elçibəy. Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ müharibəsinin başlanması, Xocalı soyqırımı. Respublikada ictimai-siyasi böhran, torpaqların işğalı. Hərbi uğursuzluqlar. | [XIV fəsil, §45 s.331-338] |
| 15. | | Heydər Əliyevə ikinci dəfə Azərbaycanda hakimiyyətə gəlməsi. Heydər Əliyevin yeni siyasi kursu. Siyasi sabitliyə doğru. Azərbaycan-Ermənistan münasibətləri. Atəşkəs.<br>İlham Əliyevin prezident seçilməsi, dövlət idarəçiliyinin təkmilləşdirilməsi. Heydər Əliyev kursunun davam etdirilməsi.Dağlıq Qarabağ uğrunda aparılan diplomatik mübarizə. 44 günlük müharibə.<br><br>**FİNAL İMTAHANI** (8-15-ci mövzular) | [XIV fəsil, §45-46, s.338-344] |